


# GENDER BƏRABƏRLİYİ VƏ QADIN HÜQUQLARI

## Avropa Şurası Standartları




Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Gender bərabərliyi insan hüquqlarının qorunması, demokratiyanın fəaliyyəti, qanunun aliliyinə hörmət və sosial rifah üçün başlıca amildir. Avropa Şurasının insan hüquqları və gender bərabərliyi sahəsində işi Şuraya üzv dövlətlərdə və onların xaricində qadınların vəziyyətinin yaxşılaşdırılmasına və səlahiyyətlərinin genişləndirilməsinə, eləcə də gender bərabərliyinin effektiv şəkildə reallaşdırılmasına yönələn hərtərəfli hüquqi standartların və bu sahədə siyasətə dair rəhbər prinsiplərin hazırlanması ilə nəticələnmişdir.

## AVROPA ŞURASININ KONVENSİYALARI

Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası (İstanbul Konvensiyası, 2011) qadınlara qarşı zorakılığın bütün formaları ilə mübarizəyə dair ən əhatəli beynəlxalq müqavilədir. Zorakılığın qarşısının alınması, qurbanların qorunması, təqsirkarların məsuliyyətə cəlb olunması və milli səviyyədə kompleks siyasətin müəyyən edilməsi onun təməlini təşkil edir. İstanbul Konvensiyasının tələb etdiyi tədbirlər birmənalı olaraq belə bir mülahizəyə əsaslanır ki, qadın və kişilər arasında yalnız real bərabərliyin olması və onların səlahiyyətlərinin dinamikasında və yanaşmalarda dəyişikliyin baş verməsi insan hüquqlarının bu ciddi pozuntusunun qarşısını ala bilər. Bu səbəbdən qadınlara qarşı zorakılıq qadın və kişilər arasında bərabərlik məqsədi güdən siyasət və tədbirlərə şərait yaradılmadan aradan qaldırıla bilməz. İstanbul Konvensiyasında onun icrasının qiymətləndirilməsi və yaxşılaşdırılması üçün iki komponentdən ibarət monitorinq mexanizmi nəzərdə tutulur: Qadınlara qarşı zorakılığa və məişət zorakılığına qarşı fəaliyyət üzrə müstəqil Ekspertlər Qrupu (GREVIO) və Tərəflərin Komitəsi.

Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında Avropa Şurası Konvensiyası (Lansarote Konvensiyası, 2007) uşaqlara qarşı cinsi hüquqpozmaların bütün formalarını cinayət əməli kimi müəyyən edən (kriminallaşdıran) ilk müqavilədir. O, konkret olaraq uşaqlarla cinsi münasibətdə olmaq, uşaq fahişəliyi, uşaq pornoqrafiyası, seksual xarakterli məqsədlər üçün uşaqların təqib edilməsi ("sövq etmə") və seks turizmi ilə məşğul olma əməllərini kriminallaşdırır. Lansarote Konvensiyası fərdlərin hətta xaricdə törətdikləri müəyyən hüquqpozmalara görə də cinayət məsuliyyəti müəyyən edir. Qabaqlayıcı tədbirlərə bunlar daxildir: uşaqlarla təmasda çalışan şəxslərin yoxlanıldıqdan sonra işə götürülməsi və onlara təlim keçilməsi; uşaqların risklər barədə məlumatlandırılması və onlara özlərini qorumağın öyrədilməsi; və hüquqpozanlar və potensial hüquqpozanlar barəsində monitorinq tədbirləri. Konvensiyanın Tərəflər Komitəsi (“Lansarote Komitəsi”) Konvensiyanın effektiv şəkildə yerinə yetirilməsinə nəzarət edir.

İnsan alverinə qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası (2005) cinsi istismar, əməyin istismarı və ya digər növ istismar məqsədi ilə həyata keçirilən qadın, kişi və uşaq alverinin qarşısının alınması və onunla mübarizə aparılması, habelə qurbanların qorunması və insan alverçilərinin məsuliyyətə cəlb olunması məqsədini daşıyır. Konvensiyanın 3-cü maddəsinə ayrı-seçkiliyin yolverilməzliyinə dair müddəa daxil edilmişdir. Həmçinin Konvensiyanın iştirakçısı olan tərəflər gender bərabərliyini təşviq etmək və tədbirlərin hazırlanmasında, həyata keçirilməsində və qiymətləndirilməsində gender amilini nəzərə almaq öhdəliyini daşıyırlar. Konvensiya müddəalarının iştirakçı dövlətlər tərəfindən necə yerinə yetirildiyinin qiymətləndirilməsi üçün Konvensiyada iki komponentdən ibarət müstəqil monitorinq mexanizmi müəyyən edilir: İnsan alverinə qarşı fəaliyyət üzrə(müstəqil Ekspertlər Qrupu (GRETA) və Tərəflərin Komitəsi.

Avropa Sosial Xartiyası (1961) iqtisadi və sosial hüquqlardan, xüsusən insanların mənzil, səhiyyə, təhsil, məşğulluq, hüquqi və sosial müdafiə və hərəkət azadlığı sahəsindəki hüquqlarından istifadəni təmin edir. Bunlar heç bir əlamətə, xüsusən cinsə görə ayrı-seçkilik qoyulmadan həyata keçirilməlidir. Avropa Sosial Xartiyasına 1996-cı ildə yenidən baxılmışdır və o, təhsil, iş və ailə həyatında



qadınlar və kişilər arasında bərabərliyin, bərabər imkanların və bərabər əmək haqları hüququnun təmin edilməsi üçün pozitiv tədbirlərin görülməsini nəzərdə tutur. Avropa Sosial Hüquqlar Komitəsi hesabatlar sistemi və kollektiv şikayət proseduru vasitəsilə ölkələrdəki durumun Xartiyaya uyğunluğunu izləyir.

Avropa İnsan Hüquqları Konvensiyası (1950) (Konvensiya) Avropanın əsas insan hüquqları müqaviləsidir. O, mülki və siyasi insan hüquqlarını təmin edir. 1-ci maddə tərəflərin Konvensiyadakı hüquq və azadlıqları "yurisdiksiyaları daxilində olan hər kəs" üçün təmin etmək öhdəliyini müəyyən edir. Bu hüquqlardan istifadə cins də daxil olmaqla heç bir əlamətə görə ayrı-seçkilik qoyulmadan təmin edilməlidir (14-cü maddə). 12 saylı Protokol ayrı-seçkiliyin yolverilməzliyi prinsipini bir daha təsdiqləyir; onun 1-ci maddəsində qanunla müəyyən edilmiş hüquqlardan istifadənin cins də daxil olmaqla heç bir əlamətə görə ayrı-seçkilik qoyulmadan təmin edilməsi bir daha qeyd edilir. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyada təsbit olunmuş mülki və siyasi hüquqların pozulması barədə fərdlərin və ya dövlətlərin şikayətləri üzrə qərar qəbul edir.

## NAZİRLƏR KOMİTƏSİNİN ÜZV DÖVLƏTLƏRƏ TÖVSİYƏLƏRİ

Seksizmin qarşısının alınması və onunla mübarizə haqqında Rec(2019)1 saylı tövsiyədə seksizmin beynəlxalq səviyyədə ilk anlayışı yer alır və bu anlayış şəxsin və ya qrupun (əksər hallarda bunlar qadınlar olur) cinsi mənsubiyyətinə görə aşağı təbəqə olması ideyasına əsaslanan istənilən hərəkəti, jesti, vizual təsviri, şifahi və ya yazılı sözləri, praktikanı və ya davranışı əhatə edir. Tövsiyədə seksizm ilə qadınlara qarşı zorakılıq arasında əlaqə vurğulanır və üzv dövlətlərin aşağıdakı sahələrdə seksizmi aradan qaldırmaları tələb olunur: dil və kommunikasiya; internet və sosial media; media, reklam və digər kommunikasiya üsulları; iş yeri; ictimai sektor; məhkəmə sistemi; təhsil müəssisələri; mədəniyyət və idman; və özəl sahə. Tövsiyədə iştirakçı dövlətlərin milli səviyyədə bu sahəyə aid siyasətin həyata keçirilməsini izləmələri və Avropa Şurasına dövri qaydada hesabat vermələri tələb edilir.

Audiovizual sektorda gender bərabərliyi haqqında Rec(2017)9 saylı tövsiyə audiovizual sahədə gender bərabərliyi problemlərinin, o cümlədən aşağıdakı məsələlərin həllinə yönələn ilk ümumavropa tövsiyəsidir: bu problem barədə məlumatsızlıq; bütün səviyyələrdə şüurlu və qeyri-şüuri gender qərəzliliyi; və vəsaitlərin qeyri-bərabər bölgüsü. Tövsiyədə hökumətlərə aşağıdakılar təklif olunur: qanunvericilik və siyasətlərinə yenidən baxmaq; məlumatları toplamaq, izləmək və dərc etmək; araşdırmaları dəstəkləmək; media sahəsində savadlılığın davamlı inkişafını təşviq etmək; və hesabatlılıq proseslərini yaxşılaşdırmaq. Tövsiyədə həmçinin bu sahədə bilikləri inkişaf etdirmək üçün alətlər və bir sıra monitorinq metodları və səmərəlilik göstəriciləri ehtiva olunur ki, bunlar da məlumatların toplanmasına və gəlinən qənaətlər əsasında ardıcıl tədbirlərin görülməsinə kömək məqsədi daşıyır.

İdmanda gender amilinin nəzərə alınması haqqında Rec(2015)2 saylı tövsiyədə üzv dövlətlərə çağırış edilir ki, idmanın bütün sahələrində və səviyyələrində gender məsələlərinin nəzərdə tutulmasına, tətbiq və təmin edilməsinə yönəlmiş siyasət və təcrübələri təbliğ və təşviq etsinlər. Buraya aşağıdakılar daxildir: qanunvericilik; siyasət və proqramlar; idman sahəsində olan qadınlar və qızlar haqqında məlumatların toplanması və tədqiqi; və dövlət orqanlarının və idmanla məşğul olan iştirakçıların gender bərabərliyi məsələləri barədə məlumatlılığının artırılması və onlar üçün təlim keçilməsi.

Gender bərabərliyi və media haqqında Rec(2013)1 saylı tövsiyədə mediada gender bərabərliyini təşviq etmək və gender stereotipinə qarşı mübarizə aparmaq üçün rəhbər prinsiplər və təklif olunan tədbirlər yer alır. O, həm üzv dövlətlərə, həm də media qurumlarına ünvanlanmışdır. Tövsiyədə gender bərabərliyi sahəsində siyasət və qanunvericiliyin nəzərdən keçirilməsi və qiymətləndirilməsi; mediada gender bərabərliyi üzrə milli indikatorların qəbul və tətbiq edilməsi, məlumatların təmin edilməsi və qabaqcıl təcrübələrin təşviqi; hesabatlılıq kanalları, araşdırmalar, media savadlılığı və fəal vətəndaşlıq kimi məsələləri əhatə edən tədbirlər ehtiva olunur.

Əlilliyi olan qadınların və qızların hüquqlarının müdafiəsi və təşviqi haqqında Rec(2012)6 saylı tövsiyədə üzv dövlətlərdən istənilir ki, əlilliyi olan qadın və qızların hüquqlarını təbliğ etmək və bütün sahələrdə onların iştirakını təşviq etmək üçün qanunvericilik aktları qəbul etsinlər və pozitiv tədbirlər görsünlər. Əlilliyi olan qadın və qızların bir çox hallarda ayrı-seçkiliyə məruz qala biləcəyi nəzərə alınaraq, tövsiyəyə aşağıdakı sahələrdə tədbirlər daxil edilmişdir: təhsil və təlim; məşğulluq və iqtisadi vəziyyət; səhiyyə; sosial müdafiəyə çıxış imkanı; cinsi və reproduktiv hüquqlar, analıq və ailə həyatı; ədalət mühakiməsinə çıxış imkanı, zorakılıqdan və pis rəftardan müdafiə; mədəniyyət, idman, istirahət və turizm fəaliyyətlərində iştirak; və məlumatlılığın artırılması və münasibətin dəyişdirilməsi.

Münaqişələrin qarşısının alınmasında və həllində və sülhün bərqərar edilməsində qadınların və kişilərin rolu haqqında Rec(2010)10 saylı tövsiyədə münaqişələrin qarşısının alınması, həlli və sülhün bərqərar edilməsi üzrə fəaliyyətlərdə qadınlara və kişilərə fərqli rolların şamil edilməsinə və aşağıdakı sahələrdə strategiya və mexanizmlərin hazırlanmasına dair rəhbər prinsiplər təqdim edilir: insan hüquqlarına hörmət və münaqişələrin qeyri-zorakı vasitələrlə həlli; gender əsaslı zorakılığa qarşı mübarizə; qərarların qəbulunda qadınların və kişilərin balanslı iştirakı; və qadınların səlahiyyətlərinin genişləndirilməsi.

Səhiyyə siyasətində gender fərqliliklərinin nəzərə alınması haqqında Rec(2008)1 saylı tövsiyədə üzv dövlətlərdən istənilir ki, səhiyyə sahəsində qadınların və kişilərin konkret ehtiyaclarını ödəməklə və səhiyyə siyasətində və strategiyalarında gender əsaslı yanaşmanı inkişaf etdirməklə gender məsələsini prioritet sahəyə çevirsinlər. Həmçinin üzv dövlətlərə tövsiyə olunur ki, səhiyyə sektorunda gender məsələləri ilə bağlı məlumatlılığı və səriştəliliyi artırsınlar, qərarların qəbulunda qadınların və kişilərin balanslı iştirakını təmin etsinlər və səhiyyə siyasətində gender amilinin nəzərə alınmasını monitorinq etsinlər və qiymətləndirsinlər. Gender məsələlərinin təhlili də daxil olmaqla gender əsaslı mütəmadi səhiyyə hesabatlarının hazırlanması və milli səhiyyə hesabatları üçün məlumatların toplanmasında gender əsaslı indikatorların istifadəsinin təşviqi tövsiyədə təklif olunan tədbirlər arasındadır.

Gender bərabərliyi standartları və mexanizmləri haqqında Rec(2007)17 saylı tövsiyədə praktikada gender bərabərliyinə nail olmaq üçün tədbirlər nəzərdə tutulur. Tövsiyədə xüsusən vəzifələr, şəffaflıq, gender amilinin nəzərə alınması və qeyri-cinsiyyətçi dildən istifadə ilə bağlı ümumi tədbirlər əks olunur. Həmçinin aşağıdakı sahələrdə gender bərabərliyi standartlarının qəbul edilməsi tövsiyə olunur: şəxsi və ailə həyatı; təhsil; elm və mədəniyyət; iqtisadi həyat; sosial müdafiə; cinsi və reproduktiv məsələlər də daxil olmaqla sağlamlıq ; qadınlara qarşı zorakılıq; insan alveri; münaqişə və münaqişədən sonrakı vəziyyətlər; və bir çox hallarda ayrı-seçkiliyə məruz qalan həssas qruplar. Tövsiyədə həmçinin gender bərabərliyi üçün milli institusional mexanizmlər; irəliləyişlərin ölçülməsi və qiymətləndirilməsi üçün araşdırma və alətlər; və tərəfdaşlıq münasibətlərinin qurulması kimi əlavə strategiyalar təklif olunur.

Təhsildə gender amilinin nəzərə alınması haqqında Rec(2007)13 saylı tövsiyədə üzv dövlətlərə çağırış edilir ki, təhsil sisteminin bütün səviyyələrində gender yanaşmasının tətbiqinə yönələn tədbirləri təbliğ və təşviq etsinlər. Tövsiyədə təhsil sahəsində, o cümlədən, məsələn, bu sahəyə aid qanunvericilik bazasında və siyasətdə, məktəbin fəaliyyətində, məktəbin tədris proqramında, tədris metodlarında, gələcək peşə seçimində və təhsil işçilərinin hazırlığında gender yanaşmasının effektiv şəkildə təmin edilməsi üçün tədbirlər müəyyən edilir.



**Siyasi və ictimai qərarların qəbul edilməsində qadınların və kişilərin balanslı iştirakı haqqında Rec(2003)3 saylı tövsiyə** siyasi və ictimai həyata aid qərarlar qəbul edən istənilən orqanda hər bir cinsin ən azı 40% təmsilçiliyini qadınların və kişilərin balanslı iştirakı kimi müəyyən edir. Üzv dövlətlərə tövsiyə olunur ki, qərarların qəbul edilməsində qadınların və kişilərin balanslı iştirakına və qərarların qəbulu üzrə səlahiyyətlərin bərabər bölgüsünə nail olmaq üçün bir sıra qanunverici, inzibati və dəstəkləyici tədbirlər görsünlər. Tövsiyənin üzv dövlətlər tərəfindən yerinə yetirilməsinin monitorinqi aparılır ki, bunda da məqsəd irəliləyişlər və boşluqlar barədə məlumatları üzv dövlətlərə təqdim etməkdir.

**Qadınların zorakılıqdan müdafiəsi haqqında Rec(2002)5 saylı tövsiyə** qadınlara qarşı bütün zorakılıq formalarına son qoyulması üçün tədbirləri, o cümlədən aşağıdakıları müəyyənləşdirir: qadınlara qarşı zorakılığın qarşısının alınması və araşdırılması üçün qanunvericilik və siyasət tədbirləri; qurbanlara yardım; hüquqpozanlarla iş aparmaq; maarifləndirmə, təhsil və təlim; və müvafiq məlumatların toplanması.

**Gender amilinin nəzərə alınması haqqında R(98)14 saylı tövsiyə** üzv dövlətləri Gender amilinin nəzərə alınması üzrə Avropa Şurasının Mütəxəssislər Qrupunun hesabatı (1998) əsasında gender əsaslı yanaşmanın tətbiqinə əlverişli mühit yaratmağa və kömək göstərməyə çağırır. Həmin hesabatda gender əsaslı yanaşmanın konseptual əsasları, anlayışı və tətbiqi metodologiyası əks olunmuş və qabaqcıl təcrübələrin nümunələri verilmişdir.

**İş və ailə həyatının uzlaşdırılması haqqında R(96)51 saylı tövsiyə** üzv dövlətləri qadın və kişilərin iş və ailə həyatlarını daha yaxşı uzlaşdırmalarına şərait yaratmağa çağırır. Təklif olunan tədbirlərə bunlar daxildir: iş vaxtının təşkili (adaptiv məşğulluq, analıq, atalıq və valideynlik məzuniyyəti); əmək bazarında qadınlar və kişilər arasında ayrı-seçkiliyin ləğv edilməsi; ailələrin mənafeləri naminə yetərincə maliyyələşdirilən xidmətlərin inkişaf etdirilməsi; sosial təminat sxemlərinin və vergi sistemlərinin iş fəaliyyəti modellərinin müxtəlifliyinə uyğunlaşdırılması; və məktəblərdə dərs vaxtının və tədris proqramlarının təşkili.

**Seksist ifadələrin dildən çıxarılması haqqında R(90)4 saylı tövsiyə** üzv dövlətləri qadınlar və kişilər arasında bərabərlik prinsipini əks etdirən ifadələrin istifadəsini təşviq etməyə çağırır. Tövsiyədə qanun layihələrinin hazırlanması, dövlət idarəçiliyi, təhsil və media da daxil olmaqla bütün sahələrdə qeyri-seksist ifadələrin istifadəsini təşviq edən tədbirlərin qəbul olunması təklif edilir.

**Cinsi ayrı-seçkiliyə qarşı hüquqi müdafiə haqqında R(85)2 saylı tövsiyədə** üzv dövlətlərdən tələb olunur ki, qadın və kişilər arasında bərabərliyin təşviqinə yönələn tədbirlər görsünlər və ya belə tədbirləri gücləndirsinlər, o cümlədən bunun üçün məşğulluq; sosial təminat və pensiyalar; vergiqoyma; mülki hüquq; vətəndaşlığın alınması və itirilməsi; və siyasi hüquqlar da daxil olmaqla müxtəlif sahələrə aid qanunvericilik qəbul etsinlər. Tövsiyəyə Əlavədə qadın və kişilər arasında faktiki bərabərliyin reallaşmasını sürətləndirmək üçün hazırlanmış xüsusi müvəqqəti tədbirlərin qəbulunun nəzərdən keçirilməsinin zəruriliyi qeyd edilir.

**Qadın miqrantlar haqqında R(79)10 saylı tövsiyə** üzv dövlətləri qadın miqrantlarla bağlı milli qanunvericiliyin və normativ aktların beynəlxalq standartlara tam uyğunlaşdırılmasını təmin etməyə çağırır. Həmçinin miqrant qadınlara müvafiq məlumatların verilməsi; iş şərtlərində ayrı-seçkiliyin qarşısının alınması; və onların sosial-mədəni inteqrasiyasının, peşə seçimi imkanlarının və onlar üçün təlimlərin təşviqi məqsədi ilə tədbirlərin görülməsi tövsiyə olunur.




Əlavə məlumat üçün lütfən bizim internet saytımıza baxın:
**http://www.coe.int/equality**
və yaxud buraya elektron məktub göndərin:
**gender.equality@coe.int**

AZE

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 47 üzv dövətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

**www.coe.int**

Avropa İttifaqının üzv dövlətləri bilik və bacarıqlarını, resurslarını və müqəddəratlarını bir araya gətirməyə qərar veriblər. Mədəni müxtəlifliyi, tolerantlığı və fərdi azadlıqları qoruyaraq birlikdə sabitlik zonasına, demokratiyaya və dayanıqlı inkişafa nail olublar. Avropa İttifaqı öz sərhədlərindən kənarda yerləşən digər ölkə və xalqlarla öz nailiyyətlərini və dəyərlərini bölüşməyə qərarlıdır.

**http://europa.eu**

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Bu tərcümə Avropa İttifaqının və Avropa Şurasının birgə maliyyələşdirdiyi "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi çərçivəsində hazırlanıb. Burada ifadə olunan fikirlər hər iki tərəfin rəsmi mövqeyini əks etdirməyə bilər.